# “Müharibə cinayətləri: mülki şəxslərə hücum” mövzusunda Gəncədə beynəlxalq konfrans

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi (QHTDDA) tərəfindən Ermənistan silahlı qüvvələrinin Vətən Müharibəsi zamanı Gəncə şəhərində törətdiyi terror hadisələrinin ikinci ildönümü ilə bağlı “Müharibə cinayətləri: Mülki şəxslərə hücum” adlı beynəlxalq konfrans keçirilib. Konfrans Gəncənin Heydər Əliyev Mərkəzində gerçəkləşib.**

Qonaqlar əvvəlcə Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin raket atəşinə məruz qoyduğu ərazini ziyarət ediblər. Burada onlara hadisə barədə məlumat verilib. Bildirilib ki, Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə ümumilikdə 5 dəfə (4, 5, 8, 11 və 17 oktyabrda) raket və ağır artilleriya ilə hücum edilib. Nəticədə 26 mülki şəxs həlak olub, 142 nəfər yaralanıb.

Sonra qonaqlar və digər tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Gəncə terroru ilə bağlı yeniyetmə rəssamların sərgisi ilə tanış olublar.

Konfransda Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, QHT-yə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Milli Məclisin deputatları – Musa Quliyev, Müşviq Cəfərov, Naqif Həmzəyev, YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, QHTDDA Müşahidə Şurasının üzvü Zaur İbrahimov, Çexiya Gənclər Assosiasiyasının rəhbəri Radek Smolka, Finlandiyanın Fimigrant Ri təşkilatının rəhbəri İlkka Yuvankovski, Polşa Demokratlar Assosiasiyasının rəhbəri Adrian Pioçeta, qeyri-hökumət təşkilatları və media nümayəndələri iştirak ediblər.



Konfrans şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Çıxış edənlər 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinin cəbhə xəttindən kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması onların çirkin niyyətlərini bir daha açıb göstərib. Beləliklə, dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətləri törədiblər.

Çıxışlardan sonra mövzu ətrafında müzakirələr aparılıb.

Konfransın yekunu olaraq, iştirakçılar adından bəyanat səsləndirilib.

**Hamlet QASIMOV,**
**“Xalq qəzeti”nin bölgə müxbiri**

Xalq qəzeti .- 2022.- 19 oktyabr.- S.5.